## Oruç Dadaşi Elman

### Gözəldən Məni

Darıxdım gülşəndə solan gül kimi
Qurtaran olmadı xəzəldən məni
Ayrılıq sovruldu başa kül kimi
Ayırdı sən kimi gözəldən məni

Hər yana yönəldim tapdı qəm, kədər
Həsrətlə eylədi ömrümü hədər
Ağlatdı, incitdi sevdiyim qədər
Ağrıya tuş etdi əzəldən məni

Tüstüyə çevrilib, közdən ayrıyam
Dəyərli, yetərli sözdən ayrıyam
Yaş olub düşmüşəm, gözdən ayrıyam
Axtarıb, aramır göz, əldən məni

Alışıb sönmüşəm, şeirlərimdə
Elmana çönmüşəm, şeirlərimdə
Xəyala dönmüşəm, şeirlərimdə
Gəl soruş qoşmadan, qəzəldən məni